Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Dini və milli tolerantlıq Azərbaycanın tərəqqisinə getdikcə daha böyük töhfələr verir...

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**Müasir dünyada dini və milli tolerantlıq bu gün ən aktual və fəal müzakirə olunan mövzular sırasındadır. Bu da təsadüfi deyil. Qeyd edək ki, dini tolerantlıq indi ictimai şüurun mürəkkəb fenomeni kimi nəzərdən keçirilir. Burada dünyagörüşü və sosial-psixoloji münasibətlər birləşərək çoxsaylı dini ənənələrin legitimliyinə əsas yaradır.**



Dini tolerantlıq həm də fərdlər, ictimai strukturlar və dövlət səviyyəsində konkret hərəkətlər kimi qəbul edilməlidir. Başqa sözlə, dini tolerantlıq vətəndaş cəmiyyətinin bütün fərdlərinin həm dinə, həm də konfessiyaya mənsubiyyətinə görə fərqli olmaq hüququnda təzahür edən dəyər və sosial norma kimi başa düşülə bilər. Elə Azərbaycanda da dini və milli tolerantlıq artıq özünü sosial norma, əsrlərdən gələn dəyər kimi büruzə verir.

### Cəmiyyətin mənəvi həyatının modernləşdirilməsində dinə konstruktiv yanaşma mühüm rol oynayır

Dini və milli tolerantlıq ənənələri Azərbaycanda ictimai-fəlsəfi fikrin inkişafının bütün mərhələlərində öz xüsusi ifadəsini tapıb. Bir çox böyük mütəfəkkirlər xalqların, fərdlərin xüsusiyyətlərini və şəraitini nəzərə alaraq dinini sərbəst seçmək hüququ ideyasından çıxış ediblər. Bu ideya Azərbaycanda bərk özüllər üzərində təşəkkül tapıb. Faktdır ki, Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Azərbaycanda İslam dini ilə yanaşı xristian və yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Xristianlar, yəhudilərlə yanaşı, Azərbaycanda bəhailər, krişnalar və digər dinlərin mənsubları da dini etiqadlarını sərbəst həyata keçirirlər.

Dini tolerantlıq bu gün Azərbaycanda sülhün, sabitliyin və iqtisadi tərəqqinin təmin edilməsində həlledici amilə çevrilib. Azərbaycanlılar üçün tolerantlıq prinsipi təkcə siyasi mədəniyyət norması deyil, həm də onu güclü dəstəkləyən və gücləndirən dövlətin əsas prinsiplərindən biridir. Bunu çoxsaylı sosioloji sorğuların nəticələri sübut edir. Bu nəticələr ölkəmizdə dini və milli tolerantlığın, dözümlülüyün yüksək dərəcəsini göstərir. O da qeyd edilməlidir ki, indiki qloballaşma dövründə Azərbaycan cəmiyyətinin mənəvi həyatının modernləşdirilməsi dinə yeni konstruktiv yanaşma olmadan mümkün deyil. Tarixən Azərbaycan həmişə Şərq və Qərbin müxtəlif dinləri, mədəniyyətləri və sivilizasiyaları arasında görüş və dialoq məkanı olub. Azərbaycanlıların mədəni və etik ənənələrindən miras qalan mənəvi sferada tolerantlıq bu gün və gələcəkdə vətəndaş sülhünün qorunması üçün möhkəm əsasdır. Bu mənada təsadüfi deyil ki, yeni müstəqillik illərində Azərbaycan bütün konfessiyalar - müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər üçün mütləq din azadlığını təmin edib. Dini qurumların əhəmiyyətli kəmiyyət və keyfiyyət artımı baş verib. Rus pravoslav kilsəsinin nümayəndəsi Konstantin Pominov bunlarla bağlı qeyd edir ki, Azərbaycanda bütün dinlər üçün bərabər yaşam imkanları mövcuddur: "Bu səbəbdəndir ki, ölkədə məscidlərlə bərabər, kilsələr, sinaqoqlar və digər ibadət yerləri də tikilir, yaxud təmir olunur. Azərbaycanda dini sahəyə göstərilən diqqət və qayğıya görə dövlətə minnətdarıq". Bunlara paralelolaraq daha bir mühüm xarakterik cəhət ondan ibarətdir ki, Azərbaycanda dini birliklər cəmiyyətdən təcrid olunmuş şəkildə ayrıca mövcud deyil, onlar cəmiyyətdə vətəndaş sülhünün və mənəvi harmoniyanın möhkəmləndirilməsinə yönəlmiş sosial-mədəni tədbirlərin vacib iştirakçılarıdır. Belə tədbirlər Azərbaycan gənclərinin din haqqında biliklərinin artırılmasına imkan verməklə yanaşı, digər konfessiyaların tarixi və mədəni irsi ilə tanış olmağa, müxtəlif millətlərin və dini inancların nümayəndələri arasında qarşılıqlı anlaşmanı yaxşılaşdırmağa səbəb olur. Ölkəmizdə bu sahədə digər üstünlükoldur ki, dünyəvi dünyagörüşünə, Qərb sivilizasiyasına və modernizmə din müxalif deyil.

### Qarabağda qalan ermənilər üçün böyük fürsət

Azərbaycanda yüksək dini və milli tolerantlıq ənənələrinin mövcudluğu Qarabağda qalan və hələ də Azərbaycan vətəndaşlığını qəbul etməyən ermənilərin cəmiyyətimizə reinteqrasiyası üçün də cəlbedici məqam olmaq iqtidarındadır. Əslində, yaxın tezlikdə onların yenidən Azərbaycan cəmiyyətinə inteqrasiyasında bu məqam çox önəmli rol oynayacaq.

Qeyd edək ki, Azərbaycan Qarabağda yaşayan erməni vətəndaşlarını ölkənin sosial, iqtisadi məkanına yenidən inteqrasiya etməkdə maraqlı və qərarlıdır. Azərbaycan Konstitusiyası və digər hüquqi aktlar da müvafiq hüquqi bazanı təmin edir. Bu zaman ermənilərin sərbəstşəkildə dini etiqadlarını həyata keçirməsinə də Azərbaycan qanunları və dövləti ən yüksək səviyyədə təminat verir. Azərbaycan yenə ən yüksək səviyyədə Qarabağda qalan erməniləri öz vətəndaşı olaraq qəbul etdiyini, ölkənin digər sakinləri kimi onlara da yaşam üçün bütün zəruri şəraiti yaratmağa hazır olduğunu bəyan edir. Bunu Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər özləri də qəbul etməli, Azərbaycan qanunvericiliyinə uyğun yaşamlarına davam etməlidirlər. Qeyd edək ki, ərazi kontekstində ölkənin bütün bölgələrində sülh və sabitliyin, millətlərarası və vətəndaş harmoniyasının Azərbaycanın ən qiymətli sərvəti olmasını indi ermənilər də görürlər. Ölkəmizdə millətlərarası və vətəndaş harmoniyasına təsir edən amillər bunlardır: 1.Ölkə rəhbərliyinin strategiyası və milli siyasət, Azərbaycanın bütün vətəndaşlarına qayğı, iqtisadi və ictimai-siyasi sahədə sabitlik; 2.Azərbaycanlıların başqa xalqların və millətlərin nümayəndələrinə münasibətinin xüsusiyyətləri, insanlarımızın mənəvi keyfiyyətləri, xoş niyyəti, tolerantlığı; 3.Ölkəmizdə yaşayan başqa millətlərin nümayəndələrinin düzgün vətəndaş mövqeyi; 4.İnsanların rifahının və həyat keyfiyyətinin sabit artımı. Müqayisəli təhlil göstərir ki, ölkədə milli siyasətin millətlərarası və vətəndaş harmoniyasının ən mühüm amili olduğuna əmin olan azərbaycanlıların sayı durmadan artır. Ölkə vətəndaşları tərəfindən bu yanaşma onu göstərir ki, məqsədyönlü sosial siyasət, dövlətin milli mənsubiyyətindən asılı olmayaraq əhalinin sosial-hüquqi müdafiəsi məsələlərinə ciddi diqqət yetirməsi millətlərarası və mülki münasibətlərin də inkişafına əlverişli zəmin yaradır.

Yuxarıda deyilənlərə əsaslanaraq, qeyd etmək olar ki, Azərbaycanda sülhün və sabitliyin təmin edilməsinə yönəlmiş dövlət strategiyası düzgün və uzaqgörəndir. Bu səbəbdən vətəndaşlarının əksəriyyəti tərəfindən dəstəklənir. Bundan Qarabağda qalan ermənilərin də faydalanmasına Azərbaycan hər cür imkan yaratmağa hazırdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**